Azərbaycan Respublikası Prezidentinin “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında” 16 fevral 2012-ci il tarixli, 2051 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏ M:**

1. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 130 illik yubileyinin keçirilməsinə dair Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının təhsil naziri, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin, Gəncə Şəhər Təhsil İdarəsinin, rayon, şəhər təhsil şöbələrinin müdirləri, ali, orta ixtisas, ilk peşə-ixtisas təhsili müəssisələrinin rəhbərləri tədbirlər planının icrasını təmin etsinlər.

3. Müəssisələrin rəhbərlərinə Тядбирляр планынын иcрасынын тямин edilməsi və görülmüş işlər haqqında məlumatın 25 noyabr 2012-ci il tarixinə qədər Təhsil Nazirliyinə təqdim edilməsi tapşırılsın.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) əmr və tədbirlər planının “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Tədbirlər planı ilə birlikdə Təhsil Nazirliyinin internet səhifəsində yerləşdirməsini тямин етсин.

5. Ümumi şöbə (X.Fərəcov) əmr və Tədbirlər planının çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət nazir müavini Q.Novruzova həvalə olunsun.

Əsas: Azərbaycan Respublikası Prezidentinin 16 fevral 2012-ci il tarixli, 2051 nömrəli Sərəncamı.

***Misir Mərdanov***

***Azərbaycan Respublikasının təhsil naziri***

***02 mart 2012-ci il***

***№354***

---

Azərbaycan Respublikası Prezidentinin “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında” 16 fevral 2012-ci il tarixli, 2051 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər Planı